# MƏHTİMQULU FƏRAQİ

Türkmən ədəbiyyatının  klassiki, məşhur filosof-şair Məhtimqulu Fəraqi türkmənlərin “göklən” boyunun “gərkəz” tayfasının “qışıqlar” tirəsindəndir. O, 1724-cü ildə Türkmənistanın cənub-qərb hissəsində, İran sərhədinə yaxın, Ətrək çayı ətrafındakı Qarrı Qala əyalətinin Gürgən şəhəri ətrafında yerləşən Hacı Qovşan kəndində (indi İran ərazisi olan Gülüstan əyalətinin Türkmən Səhrasında Günbəz Kavus şəhərində) ziyalı ailəsində anadan olmuşdur. Onun atası məşhur türkmən şairi Dövlətməmməd Azadidir (1700-1760). Anasının adı Orazgül ol-muşdur.

Məhtimqulu ilk ibtidai təhsilini öz doğma kəndlərində almışdır. O, ən böyük arzusu öz uşaqlarını elmli, savadlı görmək olan atası Azadinin dərs dediyi şagirdlərindən biri olmuşdur. İlk ibtidai təhsil – oxuyub-yazmağı öyrətdikdən sonra Dövlətməmməd Azadi onu ərsarı türkmənlərindən olan Niyaz Salih adlı müəllimin yanına göndərmişdi. Məhtimqulu burada ilk dəfə məktəb tipli təhsil almışdır. Məhtimqulu Niyaz Salihin yanında təhsilini başa vurduqdan sonra XVIII əsrin inkişaf etmiş ən mədəni mərkəzlərindən biri olan Türkmənistanın Ləbab vilayətinin Xalac ilçəsindəki Qızılayaq kəndində yerləşən İdris Baba mədrəsəsində təhsil almışdır. Məhtimqulu gənclik illərində Şərqdə elm və mədəniyyət mərkəzlərindən biri kimi tanınan Buxaraya getmiş və oradakı “Gögəldaş” mədrəsəsində təhsilini davam etdirmişdir. Gənc Məhtimqulu burada təhsil aldığı illərdə mədrəsədə dərs demək üçün dəvət edilmiş Nuru Kazım ibn Bəhr adlı suriyalı türkmanla tanış olmuş və onunla dostlaşmışdır.

Məhtimqulu ilə Nuru Kazım ibn Bahır “iki ildən sonra o dövrün ən şöhrətli elm ocağına – Xivədəki “Şirqazi” mədrəsəsinə gəlirlər” Məhtimqulunun Xivədəki “Şirqazi” mədrəsəsinə daxil olduğu il dəqiq məlumdur və 1756/57-ci ildir. Bu mədrəsədə təhsilini başa vurduqdan sonra Nuru Kazım ibn Bəhr ilə birlikdə Əfqanıstana və Hindistana getmişdir. Hindistanda altı ay qaldıqdan sonra Kabul üzərindən Özbəkistanın Mar-gilan, Əndican, Səmərqənd şəhərlərinə gəlmişdir. Türküstandakı Xoca Əhməd Yəsəvi mədrəsəsi müdərrislərinin də-vətilə bir müddət “Gögəldaş” da qalmışlar.

Məhtimqulu daha sonra Xivəyə getmiş və orada üç il, 1756/57–1760-cı illərdə “Şirqazi xan” mədrəsəsində təhsil almışdır. Bu təhsil müəssisəsini elmə, təhsilə böyük diqqət verən özbəklərin Kunqrad sülaləsindən olan Xivə xanı Şir-qazixan (hakimiyyət illəri: 1715–1728) tikdirmişdi və ona görə bu mədrəsə “Şirqazi xan”, ya da sadəcə, “Şirqazi” mədrəsəsi adlanırdı.

Məhtimqulu Fəraqi 1807-ci ildə İran – Türkmənistan sərhədi yaxınlığındakı Mərəvə təpənin Aba Sarı adlı çeşməsinin ətrafında vəfat etmişdir.

Məhtimqulunun əsərlərinin əksəriyyəti türkmən alimləri tərəfindən əhalidən toplanmışdır. Bu günə 740-dan çox şeiri, 10 poeması məlumdur.

Əsərləri Azərbaycanda dəfələrlə nəşr olunmuşdur. 2015-ci ildə “Divan”ı dosent İsmixan Osmanlı tərəfindən Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunda aşkar edilmiş və Ədəbiyyat İnstitutu tərəfindən nəşr olunmuşdur.2024-cü ildə görkəmli

türkmən şairi və mütəfəkkiri Məhtimqulu Fəraqinin anadan olmasının 300 ili tamam olur. Bu səbəbdən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən Məhtimqulu Fəraqinin 300 illik yubileyi münasibətilə 2024-cü ilin "Məhtimqulu İli" elan edilmişdir.